# Ölkəmizin ədliyyə sistemi beynəlxalq standartlara uyğun qurulur

*Azərbaycanda ədliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər bu gün də davam etdirilməkdədir. Ədliyyə orqanlarının işi və göstərdiyi hüquqi xidmətlər yeni tələblər səviyyəsində qurulmuş, maddi-texniki bazası gücləndirilmişdir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



**Ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin hüquq sistemində ədliyyənin mühüm önəm daşıdığını dəfələrlə vurğulamış, bu sahənin mahiyyətcə təkmilləşdirilməsi məqsədilə zəruri islahatlar gerçəkləşdirmiş, bununla da sistemin fəaliyyət dairəsi genişləndirilmişdir. Dahi şəxsiyyətin ədliyyədə fəaliyyətin yüksək tələblər səviyyəsində qurulması üzrə xidmətləri hazırda öz bəhrəsini verməkdədir. Ulu öndərin başladığı köklü islahatların nəticəsidir ki, müasir Azərbaycan ədliyyəsinin inkişafı hazırda davamlı prosesə çevrilib.**

Həyata keçirilən səmərəli hüquqi islahatlar kursu Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Dövlətimizin başçısının xüsusi diqqəti nəticəsində son illər ədliyyə sistemi daha da inkişaf edir.

Ölkəmizdə gedən sürətli sosial-iqtisadi inkişaf, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi və demokratik təsisatların möhkəmləndirilməsi paralel olaraq ədliyyə sisteminin daha da inkişafına, onun beynəlxalq standartlara uyğun qurulmasına da müsbət təsir göstərib. Hüquq sistemində aparılan islahatlar, qəbul edilən qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək qarşıya yeni və məsul vəzifələr qoyub.

Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha səmərəli şəkildə təşkil edilməsini, əhalinin hüquq institutlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün yeni regional və yerli qurumlarının yaradılmasını şərtləndirib. Dövrün tələbinə uyğun olaraq vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, hüquqi-fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, hüquqi maarifləndirmənin, yeni texnologiyalar tətbiqilə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması istiqamətləri üzrə ədliyyə orqanlarının inkişafını gerçəkləşdirmək dövlət siyasətinin başlıca istiqamətinə çevrilib.

Fikrimin təsdiqi olaraq, xatırladım ki, dövlət başçısı tərəfindən 6 fevral 2009-cu il tarixdə imzalanan "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" ədliyyə orqanlarının inkişafının təmin edilməsində, yeni informasiya- kommunikasiya texnologiyalarının tətbiqində, sosial, normativ-hüquqi və maddi-texniki təminatın yaxşılaşdırılmasında, infrastrukturun yeniləşdirilməsində əsaslı rol oynayıb.

Adıçəkilən Dövlət Proqramına müvafiq olaraq regionlarda hüquq təsisatlarının inkişafı, yerlərdə əhalinin ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması, bu orqanların işinin əlaqələndirilməsi məqsədilə bir sıra regional ədliyyə və qeydiyyat şöbələrinin, habelə dövlət notariat kontorlarının yeni müasir inzibati binaları istifadəyə verilib.

Bütün bunların nəticəsində əhali üçün əvvəllər mümkün olmayan daha çevik xidmətlərin göstərilməsinə başlanılıb, burada mövcud olan informasiya sistemləri vasitəsilə elektron məlumat mübadiləsi, əsaslı təhlillərin aparılması imkanları yaradılıb. Əhalinin Dövlət Reyestrinin tamlığının reallaşdırılması ilə əlaqədar akt qeydləri üzrə müvafiq texnoloji əməliyyatlar aparılaraq onların elektron informasiya bazasına daxil edilməsi təmin olunub.

Ulu öndərin kadrların seçilməsi ilə bağlı vaxtilə verdiyi tövsiyələrə uyğun olaraq, ədliyyə fəaliyyətinin əsas istiqamətlərindən biri də bu sistemdə kadr hazırlığı və peşəkarlıq səviyyəsinin artırılmasıdır. Bu məqsədlə Ədliyyə Nazirliyində yaradılan müsabiqə komissiyaları ədliyyə orqanlarına şəffaf prosedurlarla, test imtahanı və müsahibə yolu ilə yüksək nəzəri hazırlığa malik yüzlərlə gənc mütəxəssisin işə qəbulu prosesini həyata keçirir. Eyni zamanda, ixtisas komissiyası tərəfindən notariuslar və bu vəzifəyə namizədlər üçün imtahan və müsahibələr təşkil edilib, ədliyyə tarixində ilk dəfə olaraq notariat fəaliyyəti ilə məşğul olmaq üçün müvafiq şəhadətnamələr verilib.

Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə ədliyyə fəaliyyəti ilə bağlı yaradılan normativ-hüquqi bazanın əsasları daha da təkmilləşdirilib. Belə ki, 2006-cı il aprel ayının 18-də ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq, bu quruma hüquq- mühafizə orqanı statusu verilib, həmin ilin may ayında isə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Qanun qəbul edilib. Dövlət başçısı tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı ildə fərman imzalanması və nazirliyin yeni strukturunun təsdiq edilməsi Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ olub.

Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı ilə hazırda bu sahədə islahatlar yeni mərhələyə yüksəlib.

Ədliyyə sisteminin inkişafının strateji prioritetlərini müəyyən etməklə bu sahədə ən aktual məsələlərin və problemlərin həllini nəzərdə tutan adıçəkilən fərman müstəsna əhəmiyyətə malik proqram xarakterli "yol xəritəsi"dir. Bu mühüm sənədin icrası ilə əlaqədar indiyədək bir sıra qanunvericilik, institusional və praktiki tədbirlər görülüb. Bu məqsədlə yeni ixtisaslaşdırılmış – kommersiya məhkəmələri yaradılıb. Məhkəmə fəaliyyətinin avtomatlaşdırılması nəticəsində hüquqi xidmətlərə əlçatanlıq asanlaşdırılıb, vətəndaşlara və sahibkarlara məhkəmələrə müraciət etmək üçün elektron imkanlar yaradılıb, o cümlədən şəxsi kabinetin, elektron müraciətin fəaliyyəti genişləndirilib. Şübhəsiz ki, bütün bu uğurlu, sistemli və ardıcıl işin nəticəsində Azərbaycanda ədalət mühakiməsinin səmərəliliyinə, məhkəmələrə inam artıb, ölkəmizin beynəlxalq nüfuzunun artmasına, həmçinin ədliyyə sektorunda özünü dünyaya tanıtdırmağa əlverişli şərait yaradıb.

Ədliyyə sisteminin inkişafında və beynəlxalq hüquqi yardımın səmərəliliyinin artırılmasında xarici əlaqələrin rolu nəzərə alınaraq, sözügedən nazirlik tərəfindən son illər ərzində Fransa, İtaliya, Almaniya Rumıniya, Slovakiya, Bolqarıstan, Çin, İran və digər ölkələrin ədliyyə nazirlikləri ilə əməkdaşlığa dair sazişlər bağlanılıb.

Ədliyyə Nazirliyi görülən işlər nəticəsində hazırda dövlət orqanları sistemində nüfuzlu bir quruma çevrilib və səlahiyyət dairəsi genişlənib. Təsadüfi deyil ki, sahibkarlığın inkişafı və istehlakçıların hüquqlarının qorunması ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayan ölkə başçısının müvafiq fərmanı ilə sahibkarlıq sahəsində yoxlamaların mütəmadiliyi haqqında məlumatın əldə edilməsini reallaşdıran vahid məlumat reyestrinin aparılması nazirliyin səlahiyyətinə aid edilib.

Elektron hökumət təsisatlarının yaradılması istiqamətində də nazirlik mühüm addımlar atıb, dövlət qeydiyyatına alınan təşkilatlar üçün "Fərdi elektron pəncərə" elektron məlumat sistemi qurulub. Vətəndaşların ədliyyə orqanlarına müraciətlərini asanlaşdırmaq məqsədi ilə "Elektron notariat" avtomatlaşdırılan qeydiyyat informasiya sistemləri qurularaq, notariat kontorları və qeydiyyat orqanları vahid elektron şəbəkədə birləşdirilib.

Son illər ərzində vətəndaş-məmur münasibətlərinin minimuma endirilməsi, əhaliyə göstərilən hüquqi xidmətlərin səmərəliliyinin artırılması, o cümlədən, elektron xidmətlərin dairəsinin genişləndirilməsi üzrə davamlı tədbirlər həyata keçirilib, ədliyyə orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması daim diqqətdə saxlanılıb.

Hazırda dünya miqyasında Azərbaycan brendinə çevrilən "ASAN xidmət" mərkəzlərində insanlara yüksək keyfiyyətli xidmətlər göstərilməsində ədliyyə orqanları da fəal iştirak edir. "ASAN xidmət" çərçivəsində reallaşdırılan əməliyyatların böyük bir hissəsi məhz ədliyyə işçiləri tərəfindən həyata keçirilir.

Beynəlxalq təşkilatların rəylərinə əsasən, aparılan bu genişmiqyaslı islahatlar ölkənin hüquqi təsisatlarının möhkəmləndirilməsində ədliyyə orqanlarının rolunu artmasına, ədliyyə orqanlarında avtomatlaşdırılmış informasiya sisteminin və yeni texnologiyaların tətbiqinə, ədliyyə orqanlarının fəaliyyətində aşkarlığın artmasına, vətəndaşların ədliyyə orqanlarına müraciət etmək və onların fəaliyyəti barədə məlumat almaq imkanlarının genişlənməsinə, ədliyyə orqanları işçilərinin peşəkarlıq səviyyəsinin artmasına, kadr potensialının güclənməsinə gətirib çıxarıb.

***Tahirə ƏSGƏROVA,***
***Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin Binəqədi rayon qeydiyyat şöbəsinin rəisi***